İl bitir, Azərbaycan teatrlarının onillik proqramının yarımçıq icrasına görə kim məsuliyyət daşıyacaq...

Vidadi Qafarov: "Elə bəndlər icra edilmədi ki, onların həlli teatrımızın inkişafı üçün daha geniş imkanlar aça bilərdi"

Azərbaycan teatrlarının yeni dövrün tələblərinə cavab verməsi, bu sahədə müasir texnologiyaların, yaradıcılıq üsullarının tətbiq edilməsi, idarəetmə sistemində yeniliklərin işləkliyinin təmin olunması vacibdir. Əslində, 10 il əvvəl Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramında nəzərdə tutulan bütün müddəaların gerçəkləşməsi aidiyyəti qurumlar tərəfindən həll edilməli olduğu halda, həyata keçirilməyib.

Prezidentin imzası ilə təsdiqlənən Dövlət Proqramı hələ tam olaraq icra olunmayıb, buradakı bəzi müddəalar alayarımçıq şəkildə icra edilib, bəziləri isə, ümumiyyətlə, yada salınmayıb. Nədənsə, teatr məmurları və teatrlar yalnız özlərinə sərf edənlərin icra edilməsinə çalışıblar.

Qeyd edək ki, Dövlət Proqramının 1.1 maddəsində teatrın on il əvvəl mövcud olan vəziyyəti təsvir edilir. 1.2. maddəsində isə Dövlət Proqramının məqsəd və vəzifələri əks olunur. "Azərbaycan teatr sənətinin yaxın 10 il ərzində inkişaf perspektivlərini müəyyənləşdirən bu Dövlət Proqramı öz fəaliyyəti ilə milli-mədəni sərvətə çevrilmiş Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasına, ümumbəşəri və milli dəyərlərin təbliğinə, dünya mədəniyyətinə inteqrasiyasına, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsinə və repertuarın günün tələblərinə uyğun formalaşması məqsədlərinə xidmət edəcək.

Dövlət Proqramı aşağıdakı vəzifələrin həlli istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- yeni teatr siyasətinin formalaşması və teatr prosesində idarəetmənin optimallaşdırılması, teatr sahəsində islahatların aparılması;

- ümumbəşəri və milli-mədəni dəyərlərin qorunması və dünya mədəniyyətinə inteqrasiyası təmin edilməklə Azərbaycan teatr sənətinin inkişafı;

- teatr sahəsinin bütün janrları və peşə istiqamətləri üzrə gənc istedadların dəstəklənməsi;

- kadr hazırlığı və əlavə təhsil sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsilin, müştərək layihələrin keçirilməsi;

- teatr binalarının müasir standartlar səviyyəsində təmiri və maddi-texniki bazanın möhkəmləndirilməsi;

- teatr sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi;

- teatr mədəniyyətinin təbliğ olunması" - deyə vurğulanır.

Əvvəla onu qeyd edək ki, Dövlət Proqramında əks olunan məsələlərin bir çoxu elə kağız üzrərində qalıb. Bəli bu on il müddətində Azərbaycan teatrı dövlət tərəfindən onun qarşısına qoyulan hədəflərə çatmalı idi, lakin bu reallaşmadı.

Qeyd edək ki, mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan teatrının 10 illik inkişaf perspektivlərini müəyyənləşdirən "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının bu il yekunlaşdığını diqqətə çatdırıb. Lakin o, bununla işlərin bitmədiyini, teatr xadimləri ilə birgə növbəti illərin proqramını hazırladıqlarını bildirib.

Prezidentin 10 il bundan əvvəl imzaladığı Dövlət Proqramının icrasına nə mane olub? Bu proqramın icra edilməməsi məmurlardan, yoxsa teatr rəhbərlərindən asılı olub?

Teatrşünaslar bizimlə söhbətlərində bildirdilər ki, Dövlət Proqramında teatr sahəsilə bağlı 21 istiqamət əks olunub. Onlar qeyd edirlər ki, bu proqramın tam şəkildə icra edilməməsinin səbəbi bəzi teatr məmurlarının və teatr direktorlarının məsələyə səhlənkar münasibətidir. Teatrşünasların sözlərinə görə, Dövlət Proqramının müvafiq bəndinə əsasən, 2012-ci ildə UNESCO-nun Beynəlxalq Teatr İnstitutunun növbəti konqresinin Bakı şəhərində keçirilməsi reallaşmalı idi. Lakin bu məsələ ya reallaşmayıb, ya da formal xarakter daşıyıb.

Teatr sahəsində ən vacib olan istiqamətlərdən biri Teatr Treninq Mərkəzinin yaradılması idi ki, bu, 2014-cü ilə təsadüf etməli idi, ancaq biz bu mərkəzin yaranmasının şahidi ola bilmədik. Bu, proqramın yarımçıq icrasının ən açıq göstəricilərindən biridir.

Dövlət Proqramının 2.5-ci maddəsində isə yüksək səviyyəli nəşr və reklam məmulatlarının, dekor və geyimlərin hazırlanması işinin təşkilinin təkmilləşdirilməsi, 2.14-cü maddəsində isə Azərbaycan teatr sənətinin müxtəlif sahələri üzrə kitabların və elektron vəsaitlərin hazırlanması kimi vacib məsələlər önə çəkilirdi.

AMEA Memarlıq və İncəsənət İnstitutunun "Teatr, kino və televiziya" şöbəsinin müdiri Vidadi Qafarov "Bakı-Xəbər"ə bildirdi ki, Dövlət Proqramının icrasının həyata keçirilməməsinin bir neçə səbəbi var. V.Qafarovun sözlərinə görə, "Azərbaycan Teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı ölkəmiz müstəqillik qazandıqdan sonra teatr sahəsinin inkişafına yönəlik qəbul edilən vacib sənədlərdən biridir. Dövlət Proqramı qəbul edildikdən sonra teatr ictimaiyyətinin ondan gözləntiləri çox olsa da, bəzi maddələrin icradan kənarda qaldığı həll vacib olan bir sıra məsələlərin arxa planda qalmasına səbəb olub.

"Bu sənədin tam olaraq icra edilməməsində müxtəlif səbəblər var, onlardan biri də teatrların idarə edilməsi sahəsindəki boşluqlardır"

O hesab edir ki, həqiqətən də bu sənədin qəbul edilməsi və onun icrası milli teatr prosesinin intensivləşməsində böyük rol oynadı. V.Qafarovun sözlərinə görə, Dövlət Proqramının bəzi maddələri icra edildi. "Dövlət Proqramının qəbul olunması müxtəlif beynəlxalq konfransların, teatr festivallarının keçirilməsinə, xarici qastrolların təşkil edilməsinə, dünya teatrının Azərbaycan teatr məkanına inteqrasiyasına, Azərbaycan tamaşaçısının dünya teatrı ilə müəyyən qədər tanış olmasına şərait yaratdı, eyni zamanda, milli teatrımızda mövcud olan bir sıra boşluqları və problemləri də üzə çıxardı. Amma Dövlət Proqramının müddəti bu il bitsə də, bu sənəddə nəzərdə tutulan bir çox maddə təəssüf ki, yerinə yetirilməmiş qaldı. Elə bəndlər icra edilmədi ki, onların həlli teatrımızın inkişafı üçün daha geniş imkanlar aça bilərdi. Dövlət Proqramının şərhinə keçməzdən əvvəl 2006-cı ildə qəbul edilən "Teatr və teatr fəaliyyəti haqqında" Qanuna toxunmaq istəyirəm. Bu qanunda həqiqətən də yeniliklərin edilməsinə, ora yeni zamanın tələblərinə uyğun yeni maddələrin salınmasına böyük ehtiyac var. Yəni qanunda elə maddələr var ki, onlar aktuallığını itirib və zamanın tələblərinə cavab vermir. Bu, məsələnin bir tərəfi. Dövlət Proqramına gəlincə, burada nəzərdə tutulan bir sıra məsələlər öz həllini tapa bilmədi. Məsələn, Dövlət Proqramının "Tədbirlər planı"nın 2.1-ci maddəsində nəzərdə tutulan "Teatr sahəsində idarəetmənin və maliyyə-iqtisadi mexanizmlərin təkmilləşdirilməsi istiqamətində islahatların aparılması" üzrə, demək olar ki, heç bir iş görülmədi. Halbuki, bu sahədə çoxlu həllini gözləyən problem var. Bu, icrası 2009-2013-cü illər üçün nəzərdə tutulmuş 2.2-ci maddəsinə - "Teatr fəaliyyətinin normativ-hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi"nə də aiddir. Xatırladım ki, bu sahədə ana sənəd olan "Teatr və teatr fəaliyyəti haqqında" Qanun 29 dekabr 2006-cı il tarixində qəbul olunub və yalnız 2016-2018-ci illərdə "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlara uyğun olaraq, kiçik dəyişikliklərə məruz qalıb".

Dövlət Proqramının tam icra edilməməsinin səbəblərinə gəlincə, V.Qafarov bildirdi ki, burada direktor institutunun, bədii rəhbərin, yoxsa prodüsserin rəhbərlik etməsi məsələsi tam aydınlaşmadığına görə sözügedən sənədin icrasında problemlər üzə çıxıb. "Bu sənədin tam olaraq icra edilməməsində müxtəlif səbəblər var, onlardan biri də teatrların idarə edilməsi sahəsində boşluqlardır. Bu gün teatra direktorun, bədii rəhbərin, yaxud prodüsserin rəhbərlik etməsi hələ tam aydınlaşmayıb. Bu sahədə də müəyyən qaranlıq məqamlar var" - deyə bildirən V.Qafarovun sözlərinə görə, Dövlət Proqramının icra edilməsinə mane olan amillərdən biri də teatrlardan gəlir vergisi tutulmasıdır. O qeyd edir ki, teatrlardan az qala istehsalçı şirkətlərdən tutulan vergi qədər gəlir vergisi tutulur. Bu da teatrların fəaliyyətinə ciddi problem yaradır. "Təəssüf ki, teatrlar da istehsal və sənaye müəssisələri kimi vergiyə cəlb edilirlər. Teatrlardan tutulan gəlir vergisi iri istehsalçı şirkətlərdən, müəssisələrdən tutulan vergi həcmindədir. Teatrlar istehsalçı müəssislərdən fərqlidir. Teatr istehsalatla məşğul olmur, burada yaradıcılıqla məşğul olunur. Teatrlardan bu şəkildə vergi alınması nə dərəcədə düzgündür? Hesab edirəm ki, yeni qəbul ediləcək Dövlət Proqramında bu kimi məsələlər aydın şəkildə öz həllini tapmalıdır. Eyni zamanda, sponsorlar, teatrların repertuarları, statusları məsələsinə də sənədlər səviyyəsində dəqiq aydınlıq gətirilməlidir. Teatrlar təkcə dövlət büdcəsindən maliyyələşməməli, onları maliyyələşdirən sponsor şirkətlər də olmalıdır. Keçən əsrin 90-cı illərinin əvvəllərində teatrlara sponsorluq edənlər vardı. Amma onlar bu gün sponsorluq edə bilmirlər, çünki onlardan artıq vergilər tutulur. Əslində, mədəniyyətə, teatra vəsait xərcləyən şirkətlərə ciddi vergi güzəştləri edilməlidir ki, onlar teatrların inkişafına töhfələr vermiş olsunlar".

V.Qafarov qeyd etdi ki, teatr sahəsində qeyri-müəyyən məsələlərdən biri burada prodüsserlik institutunun tam formalaşdırılmaması ilə bağlıdır. "Prodüsser institutunun teatrda tam oturuşması məsələsi var. Teatrlar tam olaraq prodüsser institutuna verilməlidir, yoxsa qismən verilməlidir, bunun formaları tapılıb tətbiq edilməlidir. Burada, həmçinin, dövlət teatrları ilə yanaşı, özəl teatr məsələsi də var. Dövlət teatrları, bələdiyyə teatrları, özəl teatrların hərəsinin öz dəqiq statusu müəyyən edilməlidir. Bütün bunlar növbəti dövr üçün qəbul ediləcək Dövlət Proqramında əks olunmalıdır" - deyə V.Qafarov qeyd etdi.

İradə SARIYEVA